Qeyri-rəsmi tərcümə

**Oklahoma Ştatı**

**2013-cü il, birinci sessiya, 54-cü çağırış**

**Senat Qətnaməsi**

Təqdim edilmişdir: Ivester

## Xocalı faciəsinin 21-ci ildönümünün qeyd edilməsi ilə bağlı

1988-ci ildən 1994-cü ilə kimi davam edən Dağlıq Qarabağ müharibəsi Ermənistan və Azərbaycan arasında aparılmışdır;

1992-ci il 25 və 26 fevral tarixlərində Ermənistanın silahlı qüvvələri Rusiyanın hərbi birləşmələrinin müşayiəti ilə 600-dan çox dinc mülki şəxsi qətlə yetirərək Azərbaycanda Xocalı rayonunu işğal etmişdir;

Xocalıdakı bu hadisə müharibənin səbəb ola biləcəyi dəhşətli qətliamların və bütün dünyada millətlər arasında anlaşmaya, qarşılıqlı ünsiyyətə və tolerantlığa davamlı ehtiyacın xatirəsidir.

26 fevral 2013-cü il tarixində Xocalı faciəsinin 21-ci ildönümü tamam olur.

**Bununla, Oklahoma Ştatının 54-cü çağırış Senatı birinci sessiyasında qərara alır ki,** Oklahoma Ştatının Senatı 600-dan çox dinc sakinin zərurət olmadan qətlə yetirilməsi ilə nəticələnən Xocalı faciəsinin 21-ci ildönümünü qeyd edir.

Həmçinin qərara alınır ki, bu qətnamənin surəti Amerika Birləşmiş Ştatlarının Konqresinə, Dövlət Departamentinə və Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinə göndərilsin.